**Cəlilabadda çox gözəl əhvali-ruhiyyə var. Rayon inkişaf edir, insanlar rahat yaşayırlar...**

**İlham ƏLİYEV**

# Halal zəhmət ilə qazanıbdır ad - Cəlilabad



## Bayrama çevrilən səfərlər

Avqustun 11-də Prezident İlham Əliyev Cəlilabada növbəti dəfə səfər edirdi. Bu münasibətlə rayon bayram libasını geyinmişdi. İnsanların çöhrəsində təbəssüm, sevinc vardı. Axı həmişə olduğu kimi, bu dəfə də yeniliklər, açılışlar olacaqdı.

Prezident əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib önünə gül dəstəsi qoydu. Sonra orijinal üslubda tikilmiş Heydər Əliyev Mərkəzinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş körpələr evi-uşaq bağçasının, Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun, Göytəpə şəhərinin mərkəzində salınmış Heydər Əliyev adına park-bulvarın açılışında iştirak etdi, "Avanqard" MMC-nin rayon ərazisində yaradılmış taxılçılıq təsərrüfatı ilə tanış oldu.

Ümumiyyətlə, Prezidentin hər səfəri zamanı ayrı-ayrı bölgələrimizdə olduğu kimi, Cəlilabadda da neçə-neçə istehsalat obyektləri, sosialyönümlü tikililər istifadəyə verilir. Rayon ictimaiyyətinin nümayəndələri ilə budəfəki görüşündə Prezident belə dedi: "Son illərdə Cəlilabadda həm iqtisadi, həm də sosial sahədə çox böyük işlər görülür, gözəl obyektlər tikilir. Xatırlayıram ki, keçən dəfə burada olarkən Rayon Mərkəzi Xəstəxanasının açılışını etmişdik. Ondan əvvəl Müalicə-Diaqnostika Mərkəzinin, Olimpiya İdman Kompleksinin, Gənclər evinin, Şahmat məktəbinin, yolların açılışında iştirak etmişəm, digər obyektlərdə olmuşam".

Təkcə bunlarmı? Əlbəttə ki, yox. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində 2004-cü ildən bu yana rayonda çox işlər görülmüşdür. Həyata keçirilən tədbirlər nəticəsində rayon mərkəzi, qəsəbə və kəndlər inkişaf etmiş, abadlaşmışdır.

Ölkə rəhbərinin əvvəllər açılışında iştirak etdiyi obyektlərdən, istirahət mərkəzlərindən biri Heydər Əliyev seyrəngahıdır. Hər ötən gün, ay, il tarixdir, hər tikili isə bir nəsildən qalan yadigardır. Tarixi unutmamaq, olub-keçənləri anmaq, yaxşıları qorumaq, hifz etmək mühüm şərtdir. Cəlilabada budəfəki səfəri zamanı dövlət başçısı Heydər Əliyev seyrəngahına gəldi, burada bir qrup sakinlə görüşüb söhbət etdi. Onların hər birinin ürəyi xoş sözlərlə dolu idi. Axı Cəlilabad daxil olmaqla ölkəmiz bizim hamımızın gözü qarşısında inkişaf edir, gündən-günə abad və gözəl olur. Lyubov Danilova da rayon sakinləri arasında idi. O, burada doğulub, boya-başa çatıb. Cəlilabadda orta, Bakıda ali təhsil alıb. Neçə illərdir rus icmasının sədridir. Rayonun ictimai-siyasi həyatında yaxından iştirak edir. Zəhməti, mədəniyyəti, sadəliyi ilə əhali arasında hörmət qazanıb. Cəlilabadı özünün doğma vətəni hesab edir. Görüş zamanı L.Danilova da söz alaraq dedi: "Siz atanızın yolunu layiqincə davam etdirirsiniz. Birinci xanım Mehriban Əliyevaya sağ ol deyirik ki, hər işdə, hətta idmanda da xalqımıza dəstək verir. Bir daha demək istəyirik ki, bizdə - təkcə Bakıda yox, bölgələrdə də hər şey yaxşıdır. İşığımız, qazımız var, yollarımız abaddır. Bizim çox gözəl şəhərimiz var. Mən Cəlilabadın köhnə sakiniyəm, vaxtilə komsomolda işləyərkən heç vaxt fikrimə də gəlməzdi ki, bir zaman Cəlilabad belə gözəl olacaq". Görüş zamanı rayonun digər sakinlərindən də bir neçəsi Cəlilabadın inkişafına göstərdiyi diqqət və qayğıya görə cənab Prezidentə minnətdarlıqlarını bildirdilər.

## Quruculuğun yeni mərhələsi

Azərbaycan paytaxtının, rayonlarının gündən-günə abadlaşdığını görəndə hər birimiz qürur hissi keçiririk. Bu inkişafın arxasında düşünülmüş, müdrik siyasətin dayandığını görürük. Bəli, bu, ümummilli lider Heydər Əliyev siyasətinin uğurudur. Ulu öndər Azərbaycanı dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi, ölkənin gələcək inkişafı üçün islahatlar həyata keçirdi, çox mühüm, taleyüklü kontraktlar imzaladı. 2003-cü ilin oktyabr ayında Prezident seçilən İlham Əliyev ulu öndərin ideyalarını davam etdirir. Onun nəticələri Cəlilabad rayonunun timsalında da özünü göstərir. Rayon icra hakimiyyətinin başçısı Əziz Əzizovun ağsaqqallar, ziyalılar, ictimaiyyət ilə keçirilən görüşləri, söhbətləri və ən başlıcası qəbul olunmuş dövlət proqramları, onun fəaliyyətinin istiqamətini müəyyənləşdirməklə kompas rolunu oynadı. Vaxtilə taxıl istehsalı sahəsində Azərbaycanın Ukraynası, üzümçülükdə isə Moldovası adlandırılan rayonun şöhrətini özünə qaytarmaq, bunun üçün torpaq mülkiyyətçilərinə, iş adamlarına meydan açmaq, keçən əsrin 80-ci illərində tikilən, lakin sonralar xaos, özbaşınalıq, hərc-mərclik dövründə dağılanları bərpa etmək, şəhər təsərrüfatını yenidən qurmaq, təhsil, səhiyyə, mədəniyyət, sosial həyatın digər sahələrində yaranmış problemləri aradan qaldırmaq, yeni iş yerləri açmaq və digər məsələlər başlıca hədəf kimi müəyyənləşdirildi.

İstək, niyyət, əzmkarlıq olanda nəzərdə tutduğun, planlaşdırdığın hədəfə də çata bilirsən. Görəndə ki, bunlar ölkə başçısı, rayon sakinləri tərəfindən qiymətləndirilir, daha həvəslə çalışırsan. Cəlilabadlıların fəaliyyətində bunlar açıq-aşkar hiss olunur. Nəzərdə tutulan layihələr bir-birinin ardınca yerinə yetirildikcə yeni obyektlərin təməli atılır. Görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Cəlilabad da respublikamızın inkişaf etmiş rayonları sırasındadır. Hər dəfə bura gələrkən yeniliklərin şahidi oluruq. Yeni ictimai binaların, yaşayış evlərinin, müəssisələrin, sosialyönümlü obyektlərin tikildiyini, park və xiyabanların salındığını, küçələrin abadlaşdığını, yolların çəkildiyini görürük.

Hazırda bir çox işlərlə yanaşı, rayonun yaşayış məntəqələrinin qazlaşdırılması, Cəlilabad şəhərinin su, kanalizasiya sisteminin qurulması sahəsində işlər davam etdirilir. Prezident rayon ictimaiyyəti ilə görüşündə demişdir: "...Cəlilabad rayonunun inkişafı üçün əlavə tədbirlər görüləcək. Çox işlər görülüb, ancaq görüləsi işlər çoxdur. Hazırda içməli su və kanalizasiya layihəsi icra edilir və çalışacağıq ki, gələn ilin sonuna qədər Cəlilabad şəhərini tam şəkildə təmiz içməli su və kanalizasiya şəbəkəsi ilə təmin edək..."

Bax beləcə arzu olunanlar reallaşır, problemlər həllini tapır, insanların həyat tərzi dəyişir. Hazırda regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramında nəzərdə tutulan bütün tədbirlər təxirə salınmadan icra edilir. Cari ilin birinci yarısında daxili imkanlar hesabına Ələt-Astara magistral şose yolunun Göytəpə şəhəri, Alar, Qarazəncir və Muğan kəndlərindən keçən hissəsində uzunluğu 23 kilometr olan hasar inşa edilmiş, həyətlərin küçə qapılarına eyni formalı, müasir, yaraşıqlı darvazalar qoyulmuş, piyadalar üçün səki çəkilmiş, 300-ə qədər işıqlandırma dirəkləri quraşdırılmışdır. Prezidentin açılışlarında iştirak etdiyi yeni Heydər Əliyev Mərkəzi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər biri 100 yerlik 2 uşaq bağçası-körpələr evi, Göytəpə şəhərində ulu öndərin adını daşıyan park, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi, tikilən yaşayış evləri və başqaları da bu sıradandır.






Cəlilabad şəhərində Heydər Əliyev prospekti yenidən qurulmuş, buraya 30 min kvadratmetr tamet döşənmiş, 20 min metr kabel çəkilmişdir. Prospektdə yerləşən bütün kommersiya şəbəkələri yenidən qurulmuşdur. Hazırda rayon Prokurorluğunun, Lənkəran Hərbi Prokurorluğunun və rayon Kənd Təsərrüfatı İdarəsi üçün inzibati binalarının tikintisi davam etdirilir. Yaxın vaxtlarda isə Göytəpə şəhərində mədəniyyət mərkəzinin və idman kompleksinin tikintisinə başlanılacaq.



## Ərzaq təhlükəsizliyində xüsusi payları var

İndi zaman, tələb başqadır. Dünyada mürəkkəb proseslər gedir, neftin qiyməti aşağı düşür. Belə bir şəraitdə dövlət başçısı İlham Əliyev çevik iqtisadi siyasət ortaya qoydu. Qeyri-neft sektorunu inkişaf etdirmək, iqtisadiyyatın şaxələndirilməsinə nail olmaq, idxaldan azad olmaq, daha keyfiyyətli, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsal etməklə əhalinin tələbatını tam ödəmək. Bunların yerinə yetirilməsi üçün stimulverici qərarlar verdi. 2015-ci il "Kənd təsərrüfatı ili" elan edildi. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq və sürtkü materiallarına görə verilən subsidiyaların həcmi bu ildən 25 faiz artırıldı. Təkrar əkinlər üçün də subsidiya verilməsi qərara alındı. Bunlarla yanaşı, mineral gübrələrin satışında qiymətlərin faiz dərəcəsi aşağı salındı. Süni mayalanma yolu ilə alınan hər baş buzov üçün 100 manat verilməsi barədəki sərəncam heyvandarların ürəyincə oldu. Lizinq vasitəsilə fermerlərə, torpaq mülkiyyətçilərinə, sahibkarlara güzəştli kredit yolu ilə müxtəlif kənd təsərrüfatı texnikalarının və xarici ölkələrdən alınan inəklərin satılması haqdakı sərəncamlar da həmçinin. Ölkə rəhbərinin imzaladığı həmin sənədlər Cəlilabadda da böyük rəğbətlə qarşılandı.

Cəlilabadın torpağı bərəkətli, insanları zəhmətsevərdir. İlboyu çalışır, daha çox məhsul yetişdirməyə səy göstərirlər. Bu həm ərzaq bolluğu yaranmasına, həm də pul gəlirinin artmasına, gün-güzəranın yaxşılaşmasına, həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Ələt-Astara magistral şose yolu ilə Cəlilabad rayonu ərazisinə daxil olarkən yolun hər iki tərəfində əkin sahələrini görürsən. Məhsulu biçilmiş taxıl zəmilərinin yerində təkrar payızlıq kartof, qarğıdalı əkilib. Üzüm bağlarında isə yığım davam edir. Nümunəvi aqrotexniki qulluq nəticəsində bağlarda bu il yaxşı üzüm yetişmişdir. Fermerlər süfrə üzümlərini Bakı, Sumqayıt və digər şəhərlərdəki bazarlara göndərirlər. Texniki sortdan olan məhsullar isə rayonun Qarazəncir kəndindəki şərab zavoduna təhvil verilir. Müasir texnologiyalar əsasında qurulmuş, ən yeni avadanlıqlarla təchiz edilmiş zavodda müxtəlif növ şərab istehsal olunub. MDB və xarici ölkələrin bazarlarına çıxarılır. Hazırda rayonda 1500 hektar üzüm bağı vardır.

Taxılçılıq sahəsində son illərin rekord göstəricisi əldə edilmişdir. Keçən ilin payızında əkilmiş sahələrdən 161,7 min ton taxıl yığılmışdır. Kartofun yetişdirilməsində də göstəricilər yaxşıdır. İlin birinci yarısında 77,4 min ton kartof tədarük edilmişdir. Qeyd etmək lazımdır ki, Cəlilabadda ildə üç dəfə kartof yetişdirilir. Birincisi erkən yazda, aprel-may aylarında sellofanaltı, ikincisi iyun-iyul aylarında və üçüncüsü isə payızda.

Çiyələk becərməklə məşğul olmaq nisbətən yenidir. Bir neçə il öncə 2-3 torpaq mülkiyyətçisi onun şitilini Amerikadan gətirmişdir. Əkdikləri sahələrdən yüksək məhsul götürüb münasib qiymətə satdıqlarından yaxşı gəlir götürmüşlər. Bunu görən başqa torpaq mülkiyyətçiləri də çiyələk yetişdirməyə başlamışlar. Nəticə göz qabağındadır: cari ilin birinci yarısında 1,5 min ton çiyələk istehsal olunmuşdur. Bundan əlavə, həmin dövrdə rayon üzrə 1,1 min ton tərəvəz, 987 ton meyvə və 165 ton bostan məhsulları yetişdirilmişdir.

Zəhmət çəkəndə bol məhsul olur. Son illər ölkənin hər yerində olduğu kimi, Cəlilabadda da bu, aydın görünür. Adamlar zövqlə geyinib-keçinir, özlərinə hər şəraiti olan evlər tikdirir, müasir avtomobillər alırlar.

Kənd təsərrüfatının daha intensiv və mütərəqqi metodlarla inkişaf etdirilməsi məqsədilə rayonda ardıcıl tədbirlər görülür. "Avanqard" MMC tərəfindən yaradılmış iri fermer təsərrüfatı buna misal ola bilər. Təsərrüfatın investisiya layihəsinin ümumi dəyəri 5,9 milyon manat təşkil edir. MMC əsasən toxumçuluq istiqamətində fəaliyyət göstərəcək və yüksək reproduksiyalı buğda toxumuna olan tələbatın yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rol oynayacaq. Bu il təsərrüfatda yazlıq qarğıdalı əkilib və hər hektardan orta məhsuldarlığın 100 tondan çox olacağı gözlənilir.

Ərazidə yeraltı qrunt sularının axıdılması məqsədilə 4 min 860 metr uzunluğunda drenaj qazılıb, ABŞ-ın "Lindsay" şirkətinin istehsalı olan süni yağışyağdırma üsulu ilə müasir suvarma sistemləri quraşdırılıb. Təsərrüfatın fasiləsiz su ilə təminatı üçün 3 kilometrlik kanal təmizlənib, tutumu 50 min kubmetr olan süni göl yaradılıb və 2,3 kilometr uzunluğunda yeni elektrik xətti çəkilib. Bunlardan savayı, təsərrüfat üçün ofis, nasosxanalar və texnikaların saxlanması üçün avtopark tikilib. "Aqrolizinq" ASC vasitəsilə Almaniyanın "Claas" şirkətinin istehsalı olan texnika və aqreqatlar gətirilib. Layihənin icrası nəticəsində 50-dək yeni iş yeri yaradılıb.

Yeri gəlmişkən, rayon üzrə 530-dan çox sahibkara 21,7 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 2 min 900-dən çox yeni iş yeri açılıb.



## Yeni təhsil, səhiyyə və mədəniyyət ocaqları

Ölkəmizin, xalqımızın gələcəyinin təhsilin səviyyəsindən asılı olduğunu yaxşı bilən Prezident İlham Əliyev bu mühüm məsələni fəaliyyətində başlıca istiqamət kimi götürmüşdür. Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ilə bu sahədə misilsiz işlər görür.

Təhsil sahəsində gedən bu proseslər Cəlilabad rayonunda da aydın şəkildə görünür. Son illər burada 24 məktəb tikilmiş, 2 məktəb əsaslı təmir edilmişdir. Hazırda İncilli kənd ümumi orta məktəbin yeni binasında tamamlama işləri başa çatmaq üzrədir.

Şəhərin mərkəzində yerləşən 7 saylı tam orta məktəb də söküldü, yerində müasir, hər şəraiti olan 4 mərtəbəli yeni məktəb binası tikildi. 1100 şagirdlik bu təhsil ocağına akademik Zərifə Əliyevanın adı verildi.

Hazırda rayon üzrə 37 ümumi orta, 74 tam orta və 14 ibtidai məktəb fəaliyyət göstərir. Həmin məktəblərdə təhsil alan 27,7 min şagirdin təlim-tərbiyəsi ilə 3 minə yaxın müəllim məşğuldur. Keçən dərs ilində təhsilini başa çatdıran 1861 nəfər məzundan 278 nəfəri test imtahanından keçərək müxtəlif ali məktəblərə daxil olmuşdur. Məzunlardan 31 nəfəri 500-dən, 9 nəfəri isə 600-dən çox bal toplamışdır. Milli Qəhrəman Vüqar Mürsəlov adına Göytəpə şəhər 1 nömrəli tam orta məktəb "İlin ən yaxşı məktəbi", həmin məktəbin tarix müəllimi Zaur Ələkbərov "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

Ölkəmizdə əhalinin sağlamlığı həmişə diqqət mərkəzindədir. Şəhər və rayonlarımızın hamısında mərkəzi xəstəxanalar əsaslı şəkildə təmir olunaraq müasir tibbi avadanlıqlarla təchiz edilmişdir.

Bununla bağlı Cəlilabad rayonunda da xeyli iş görülmüşdür. Mərkəzi xəstəxana yenidən qurulmuş, qəsəbə və kəndlərdəki tibb məntəqələri təmir olunmuşdur. 2011-ci ildə istifadəyə verilmiş Müalicə Diaqnostika Mərkəzində xəstələrin müayinəsi və müalicəsi üçün bütün şərait vardır. Mərkəz ən müasir tibbi avadanlıqlarla təchiz edilmişdir.

Cəlilabad rayonu çoxillik musiqi, incəsənət ənənələrinə də malikdir. Xalq artistləri Nurəddin Mehdixanlı, Teymur Mustafayev, Ağadadaş Ağayev, əməkdar artist Sabir Mirzəyev və onlarca tanınmış xanəndələr sənət yollarında ilk addımlarını burada, rayonun ayrı-ayrı qəsəbə və kəndlərindəki mədəniyyət evlərində, klublarda atmışlar. Bu ənənə indi də davam edir. Rayonun Göytəpə şəhərində bu yaxınlarda istifadəyə verilmiş Heydər Əliyev park-bulvarı indi gecələr daha füsunkar olur. Fəvvarələr, rəngbərəng gecə fanarları, salınmış yaşıllıq buranı cənnətin bir guşəsinə oxşadır. Ayrı-ayrı tədbirlər zamanı rayonun bədii özfəaliyyət kollektivlərinin ifa etdikləri şən, şux musiqi sədaları pərdə-pərdə ətrafa yayılaraq xoş ovqat yaradır.

## Burada idmanı da çox sevirlər

Məlum olduğu kimi, 2015-ci il iyun ayının 12-dən 28-dək Azərbaycanda Bakıda I Avropa Oyunları keçirildi. Yarışlardan öncə "Atəşgah"dan od götürən məşəl ölkəmizin bütün şəhər və rayon mərkəzlərini gəzdi, o cümlədən Cəlilabadda da alovlandı. Rayon əhalisi bu idman bayramını böyük sevinclə qarşıladı.

Azərbaycanın qazandığı idman uğurlarında bölgələrimizin də xüsusi payı var. Adlı-sanlı idmançılarımızın əksəri özlərinə peşə seçdikləri sahədə ilk addımlarını rayon mərkəzlərində, ayrı-ayrı şəhərlərdə, qəsəbə və kəndlərdə yerləşən sadə idman meydançalarında və qurğularında atmışlar.

Rayonda Olimpiya İdman Kompleksi, 2 Uşaq-gənclər idman məktəbi, onlarca digər qurğular mövcuddur. Hazırda rayon üzrə 12 min 810 nəfər yeniyetmə və gənc idman və bədən tərbiyəsi ilə məşğul olur. Onlar idmanın 24 növü üzrə 174 qrupda məşqlər edirlər. İdmançılardan 1196 nəfəri qızlardır. İdmançılarla 265 nəfər məşqçi məşğul olur ki, onlardan da 113 nəfəri ali, 152 nəfəri orta ixtisas təhsillidir. Rayonda 8 nəfər respublikanın əməkdar məşqçisi, 2 nəfər beynəlxalq və 2 nəfər respublika dərəcəli hakim çalışır. Son iki ildə idmançılardan 13 nəfəri beynəlxalq yarışlarda iştirak etmişdir. Onlardan 2 nəfəri dünya, 2 nəfəri Avropa çempionu və 9 nəfəri müxtəlif beynəlxalq turnirlərin qalibi olmuşdur. 39 nəfər isə idmanın müxtəlif növü üzrə respublika birinciliyi və çempionatlarında qalib gəlmişdir.

## Cəlilabadlılar seçkilərə fəal hazırlaşırlar

Cəlilabadlılar həmişə olduğu kimi, Azərbaycan Respublikası Milli Məclisinə noyabrın 1-də keçiriləcək növbəti seçkilərə də fəal hazırlaşır. Onlar əmindirlər ki, ali qanunvericilik orqanının yeni tərkibi bundan sonra da ölkəmizin dinamik inkişafı, əhalinin sosial rifahının yüksəldilməsi və digər mühüm məsələlərlə əlaqədar qərarlar qəbul edəcək.

Rayon ərazisində 3 - 67 saylı Cəlilabad şəhər, 68 saylı Cəlilabad kənd və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar dairə seçki komissiyaları fəaliyyət göstərir. 67 saylı dairə üzrə 37 məntəqədə təxminən 39,1 min, 68 saylı dairə üzrə 34 məntəqədə 39,5 min və 69 saylı dairə üzrə isə 38,6 mindən çox seçici var. Məntəqə və dairələrdə hazırlıq işləri plana uyğun aparılır.

Cəlilabadlılar həmişə haqqın-ədalətin tərəfdarı olmuşlar. Ötən əsrin 90-cı illərində ölkəmizin başının üstünü qara buludlar alanda onlar haqq səslərini qaldırmış, çıxış yolunu ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasında görmüşlər. Bir sözlə, bu gün Azərbaycan, onun bir hissəsi olan Cəlilabad inkişaf edir, əhalinin güzəranı yaxşılaşır. Öz ənənələrinə həmişə sadiq olan Cəlilabad seçiciləri bu dəfə də məntəqələrə gedib ən yaxşı namizədlərə səs verəcəklər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***